

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 15 (23.657)

*23 yanvar 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ötən ilin yekunları müzakirə olunub, sessiyadan irəli gələn vəzifələr müəyyənləşdirilib



Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələr və 2020-ci ildə polis orqanlarının cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov geniş məruzə ilə çıxış edib. Bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsi nəticəsində muxtar respublikada dayanıqlı xarakter almış ictimai-siyasi sabitlik daxili işlər orqanlarının da fəaliyyətinə əlverişli şərait yaratdığı üçün Naxçıvanın cinayətsiz region statusu 2020-ci ildə də qorunub saxlanılıb.

Vurğulanıb ki, hər il olduğu kimi muxtar respublikada həyata keçirilən tikinti-quruculuq işləri daxili işlər orqanlarına da öz töhfələrini verib. Belə ki, hesabat ilində Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının xüsusi təyinatlı dəstəsi üçün əsgəri-məişət kompleksi tikilib, bütün zəruri avadanlıq və xüsusi vasitələrlə tam təchiz olunaraq şəxsi heyətin istifadəsinə verilib. Həmçinin Naxçıvan Hava Nəqliyyatında Polis Şöbəsinin, Xüsusi Əməliyyat Axtarış Tədbirləri Şöbəsinin və Xüsusi Təyinatlı Əməliyyat Taqımının inzibati binaları əsaslı şəkildə təmir olunub, əməkdaşlar üçün xidməti avtomobillər alınaraq onların istifadəsinə verilib.

Nazir diqqətə çatdırıb ki, daxili işlər orqanları da, öz növbəsində, yaradılan şəraitdən səmərəli istifadə edərək cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmin olunmasında qətiyyət nümayiş etdirib, şəxsi heyət qarşıya qoyulan vəzifələrin icrası ilə yanaşı, koronavirusla mübarizə tədbirlərinə cəlb edilərək karantin qaydalarına ciddi nəzarət olunub.

Daxili işlər orqanlarının pandemiya ilə əlaqədar həyata keçirilən təhlükəsizlik tədbirlərində fəal iştirakı muxtar respublika rəhbəri tərəfindən yüksək qiymətləndirilib, 1479 nəfər polis əməkdaşı, o cümlədən "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının 223 nəfər şəxsi heyətinə birdəfəlik pul mükafatı verilib.

Vurğulanıb ki, hesabat dövründə qanunsuz saxlanılan silahların yığılması istiqamətində ardıcıl həyata keçirilən profilaktik maarifləndirmə tədbirləri nəticəsində vətəndaşlardan 177 ədəd müxtəlif növ silah və xeyli sayda döyüş sursatı təhvil götürülüb.

Fazil Ələkbərov bildirib ki, muxtar respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində həyata keçirilən qətiyyətli və məqsədyönlü tədbirlər nəticəsində 2020-ci ildə də əvvəlki illə müqayisədə 1 cinayət və 3 inzibati fakt artıq aşkar edilib.

Vətəndaş məmnunluğunun təmin edilməsi çərçivəsində Azərbaycanın digər bölgələrində yaşayan muxtar respublika sakinlərinin biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi məqsədilə hesabat ilində Bakı şəhərinə ezam olunmuş aidiyyəti xidmət əməkdaşları tərəfindən 4400 nəfərdən artıq şəxsə biometrik şəxsiyyət vəsiqəsi verilib.

"Hesabat dövrünün yekunu və hərtərəfli təhlili onu göstərir ki, Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları 2020-ci ildə də qarşıda duran vəzifələrin icrasına, ictimai asayişin və təhlükəsizliyin etibarlı qorunmasına məsuliyyətlə yanaşaraq cinayətkarlığa qarşı mübarizə sahəsində qətiyyətli mövqe nümayiş etdiriblər", – deyən nazir əmin edib ki, cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən qarşıya qoyulan vəzifələr, əməliyyat xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqlar bundan sonra da dəqiq yerinə yetiriləcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması təmin olunaraq Naxçıvanın cinayətsiz region statusu qorunacaq, əldə olunmuş nəticələr daha da artırılacaq.

Məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində keçirilən kollegiya iclasında çıxış edən nazir, general-leytenant Şamı Abdullayev bildirib ki, muxtar respublikada fövqəladə hallara hazırlıq sahəsində qarşıya qoyulmuş vəzifələr 2020-ci ildə uğurla yerinə yetirilib. Nazirliyin Mülki Müdafiə Alayında və Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin 6 şöbəsində taktiki-xüsusi təlim keçirilib. 2020-ci tədris ilinin "Uzlaşma planı"na uyğun olaraq Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri "Qar uçqunlarında xilasetmə işlərinin aparılması" təlimində, avqust-sentyabr ayları ərzində Əlahiddə Ümumqoşun Ordunun Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirilən "Sarsılmaz qardaşlıq – 2020" taktiki təlimində iştirak edərək təcrübə qazanmışdır.

Nazir qeyd edib ki, struktur qurumların ixtisaslı kadrlarla komplektləşdirilməsi ötən ildə də davam etdirilərək 36 nəfər xidmətə qəbul olunub, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi ümumi şəxsi heyətlə 68,70 faiz komplektləşdirilmişdir. Fövqəladə Hallar Nazirliyi işçilərinin peşə bayramı münasibətilə 3 əməkdaş dövlət mükafatı ilə 15 əməkdaş "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilmişdir.

Vurğulanıb ki, hesabat ilində nazirliyin maddi-texniki bazası gücləndirilərək 9 ədəd xüsusi təyinatlı və avtonəqliyyat vasitəsi, 63 adda müxtəlif təyinatlı avadanlıq və tibbi çadır alınıb gətirilmiş, 2 ədəd "Isuzu" markalı səyyar işıqlandırma avtomobili, su hövzələrində xilasetmə işlərinin səmərəliliyinin artırılması məqsədilə "Yamaha" markalı skuter Mülki Müdafiə Alayına təhvil verilmişdir. Yanğınsöndürən və xilasedicilər üçün 46 dəst xüsusi geyim forması və müxtəlif diametrli 800 metr yanğın şlanqı alınmışdır. Culfa rayon şöbəsinin yeni inzibati binası və texniki qarajlarında əsaslı yenidənqurma işləri aparılaraq şəxsi heyətin istifadəsinə verilmişdir. Ərzaq anbarı və mətbəx yenidən təmir olunaraq ən müasir mətbəx avadanlıqları və havalandırma sistemi ilə təchiz olunmuş, əsgər yataqxanası və yeməkxanasında istilik sistemi yenidən qurulmuş, məişət otağı müasir tələblər səviyyəsinə gətirilmişdir. Səfərbərlik ehtiyatı və əşya anbarının beton döşəməsi yenilənmiş və müasir metal konstruksiyalı rəflər yığılmışdır.

2020-2021-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar 776 ədəd qazanxananın texniki və yanğın təhlükəsizliyi vəziyyəti yoxlanılıb, 371 nəfər mövsümi işçi ocaqçı-maşinist kurslarına cəlb olunub. 912 obyektin yanğından icbari sığortalanması təmin edilib.

Məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilən kollegiya iclasını nazir Nicat Babayev açıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci ilin 14 dekabr tarixli Fərmanı ilə muxtar respublikada "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu" yaradılıb, fondun vəsaitinin sərəncamçısı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi müəyyən edilib. Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda, həmçinin hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlığını qismən itirən 8 nəfər və 2 şəhid ailəsi fərdi ev və mənzillərlə, müvafiq kateqoriyalı 25 nəfər minik avtomobilləri ilə təmin olunub.

Diqqətə çatdırılıb ki, muxtar respublikada əmək bazarı təhlil edilib, həyata keçirilmiş məşğulluq tədbirləri nəticəsində 489 nəfəri əmək yarmarkalarında olmaqla, ümumilikdə, 2950 nəfərin iqtisadiyyatın müxtəlif sahələrində işlə təminatı diqqətdə saxlanılıb. Sosial qayğıya ehtiyacı olan ailələrin özünüməşğulluqlarının təmin edilməsi məqsədilə 291 ailənin 1289 ailə üzvünün özünüməşğulluğu, məşğulluq orqanlarında işsiz kimi qeydiyyatda olan 9116 nəfərə 190 manat məbləğində birdəfəlik ödəmənin verilməsi təmin edilib.

Vurğulanıb ki, muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində fəaliyyət göstərən xidmətlərə cəlb ediliblər. Hazırda 8 nəfəri danışma və eşitmə qabiliyyəti məhdud olmaqla, 20 sağlamlıq imkanları məhdud uşaq distant tədris vasitəsilə, 1063 sağlamlıq imkanları məhdud uşaq isə ümumtəhsil məktəblərinin müvafiq siniflərində təhsilini davam etdirir.

2020-ci ildə sağlamlıq imkanları məhdud şəxslərin Naxçıvan Uşaq Bərpa və Əlillərin Bərpa mərkəzlərində müalicəsi, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində və mərkəzin Şərur, Ordubad rayon filiallarında bu kateqoriyadan olan uşaqlarla reabilitasiya tədbirləri davam etdirilib.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələrlə bağlı kollegiya iclası keçirilib. Kollegiyanı nazir Mayis Əliyev açaraq bildirib ki, nazirlik öz fəaliyyətini cari ilin əvvəlində hazırlanmış fəaliyyət planına uyğun olaraq davam etdirib. Bu dövrdə muxtar respublikamızda meyvəçiliyin inkişafına stimul vermiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələr uğurla icra olunub. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması ilə bağlı Sərəncam çərçivəsində, o cümlədən nazirliyin əsasnaməsinə uyğun olan sahələr üzrə tədbirlər və görülmüş işlər haqqında hesabatlar hazırlanaraq aidiyyəti dövlət qurumlarına təqdim olunub. Nazir diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasında "İxrac İli" elan edilmiş 2020-ci ildə təbii iqlim və relyef xüsusiyyətləri nəzərə alınaraq aqrar-sənaye potensialından səmərəli istifadə, yeni istehsal və emal müəssisələrinin fəaliyyətə başlaması zamanı ekoloji tarazlığın qorunması, təsir hallarının minimuma endirilməsi, yaşıllıqların artırılması diqqətdə saxlanılıb.

Qeyd edilib ki, mövcud meşələrdə və digər təbiət ərazilərində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə, xüsusilə isti yay aylarında qabaqlayıcı tədbirlər həyata keçirilib, mühafizə işçiləri ilə maarifləndirici söhbətlər aparılıb. Dövlət Meşə Fondu ərazilərində, yaşıllıq zolaqlarında qurumuş ağaclar müəyyənləşdirilərək sanitar qırıntı işləri aparılıb və çıxan 1256 kubmetr oduncaq hərbi hissələrə verilib. Batabat yaylağı, Biçənək meşəsi və ətraf ərazilər olmaqla, ziyanvericilərlə sirayətlənmiş digər ərazilərdə də dərmanlama işləri aparılıb.

Məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2020-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncağı müəssisənin direktoru Behruz Əzimov açaraq məruzə ilə çıxış edib.

Qeyd olunub ki, muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən 2020-ci ildə 30 min 557,9 ton A-92 benzini, 36 min 334,7 ton dizel yanacağı, 16 min 906 ton bitum, 7 min 629,7 ton mazut, 204,8 ton müxtəlif növ yağlar alınıb. Alınan yanacaq muxtar respublikaya Bakı-İran İslam Respublikasını keçməklə və Bakı-Gürcüstan-Türkiyə marşrutları ilə daşınıb. Belə ki, ötən il Gürcüstan-Türkiyə yolu ilə 8 min 641,1 ton dizel yanacağı və 1965,5 ton A-92 benzini olmaqla, ümumilikdə, 10 min 606,6 ton neft məhsulları gətirilib. İran İslam Respublikasından keçməklə 28 min 114,3 ton dizel yanacağı, 28 min 544,2 ton A-92 benzini, 16 min 905,9 ton bitum, 7 min 629,7 ton mazut, 204,8 ton müxtəlif növ yağlar olmaqla, ümumilikdə, 81 min 398,9 ton neft məhsulları daşınıb.

Bildirilib ki, müəssisə 2020-ci ildə ümumi dövriyyəsi 70 milyon 25 min manat olan 97 min 573 ton müxtəlif növ neft məhsulları satıb, ki bu da 32 min 604 ton avtobenzin, 42 min 594,9 ton dizel yanacağı, 16 min 906 ton bitum, 5263,2 ton mazut, 204,8 ton müxtəlif yağlardan ibarətdir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının istilik sistemi olmayan təhsil, səhiyyə, mədəniyyət, turizm müəssisələrinə 2020-2021-ci illərin payız-qış mövsümü üçün tələb olunan 51 min 360 litr dizel yanacağının yerlərdə təhvil verilməsi üçün əlavə ehtiyat yaradılıb. Qeyd olunub ki, ötən il də nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olmasına daim nəzarət edilib və yanacaq ehtiyatı yaradılması diqqətdə saxlanılıb.

Müəssisənin rəhbəri 2021-ci ildə qarşıda duran vəzifələrdən danışıb. Qeyd edib ki, növbəti ildə də muxtar respublikada neft və maye qaz məhsullarına olan tələbatı ödəmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Bakı Neft Bazası ilə müqavilə bağlanılıb.

Sonra çıxışlar dinlənilib.

**Xəbərlər şöbəsi**

# Naxçıvan dəhlizi: uğurlar və perspektivlər



*Naxçıvan Muxtar Respublikasının Azərbaycanın coğrafi əmək bölgüsündə çox əhəmiyyətli yeri vardır. Belə ki, muxtar respublikada müəyyən növ məhsullarda ixtisaslaşma getmiş, gələcək üçün perspektivlər inkişaf etdirilmişdir. Naxçıvanın iqtisadi inkişaf dinamikasının planlaşması üçün region iqtisadiyyatının formalaşması və tarixi xüsusiyyətlərinin araşdırılmasına xüsusi diqqət göstərilir. Muxtar respublikanın sosial-iqtisadi inkişaf tarixinə nəzər saldıqda 2 mərhələni, ayrıca qeyd etməliyik.*

Birinci mərhələ 1969-1982-ci illəri əhatə edir ki, bu tarix, nəinki Naxçıvanın, hətta Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Bu tarixdə iqtisadiyyat kompleks şəkildə inkişaf edib. Belə ki, bu illər ərzində sənaye və kənd təsərrüfatına qoyulmuş kapitalın həcminin artırılması nəticəsində istehsalın orta illik həcmi dəfələrlə artdı. Qeyd etməliyik ki, 1970-1980-ci illər arasında istifadəyə verilən 39 sənaye müəssisəsinin bir çoxu, o cümlədən 4-ü elektroenergetika, 10-u tikinti materialları sənayesi, 4-ü yüngül sənaye, 17-si yeyinti sənayesi, 4-ü maşınqayırma olmaqla, rabitə poliqrafiya və digər sahələrin təməli qoyulmuşdu. Bu dövrdə Araz çayı üzərində su elektrik stansiyasının qurulması muxtar respublikanın enerjiyə olan asılılığını minumuma endirmişdir.

Sözügedən dövrdə şüşə qablar, alüminium qablar zavodu, dəmir-beton məmulatlar zavodu, evtikmə kombinatı, travertin karxanası, tütün-fermentasiyası zavodu, alt trikotaj və tikiş fabrikləri, bir sıra şərab-konserv zavodları fəaliyyətə başladı. Sonralar şərab zavodlarının sayı 5-ə çatdırıldı. Tək şərabçılıqda məhsuldarlıq 4.9 dəfə fərq edərək 370 min dekalitr olmuşdur. Artıq 80-ci illərin ortalarında yerli tələbatlar tamamilə ödənildi. 70-ci illərin sonunda sənaye sahələrinə ipəkçilik, baramaçılıq da qoşuldu. Həmin dövrdə Naxçıvanda istehsal edilən mineral sular Azərbaycanın tələbatının 60 faizini təmin edirdi. İstehsalın həcmi 4.1 dəfə artaraq 152 min butulkaya çatmışdı.

Bir çox sahələrdə yaradılan inkişaf dinamikası 80-ci illərin ortalarınadək inkişaf etdi. Sovet İttifaqının dağılması ilə Naxçıvanda da iqtisadiyyatda durğunluq yaşandı. Məhz belə bir dövrdə, iqtisadiyyatın tənəzzülə doğru getdiyi bir vaxtda ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və gələcəyə hesablanmış proqnozları ilə yenidən Naxçıvanın sosial-iqtisadi vəziyyətinin inkişafına təkan verildi. 6 aprel 1992-ci ildə Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi ilə bağlı qərar qəbul edildi. Məqsəd həm özəlləşmədən gələn gəlirləri büdcəyə nəql etmək, həm də kənd əhalisini təsərrüfatla məşğul olmağa sövq etmək idi.

Aparılan işlər, qəbul edilən qərarlar nəticəsində son 10 ildə ÜDM, sənaye məhsulları, əsas kapitala yönələn vəsaitlər, rabitə, ödənişli xidmətlər və digər sahələrdə artım əldə edilib. Təkcə onu qeyd etmək kifayət edər ki, son 10 ildə orta əməkhaqqı 170 faiz artaraq 484 manata çatmışdır. Respublika səviyyəsində qəbul olunmuş regionların sosial-iqtisadi inkişaf proqramı 2004-2008, 2009-2013-cü il proqramlarında, eləcə də Naxçıvan Muxtar Respublikası 2005-2008, 2009-2013, həmçinin 2019-2023 mərhələsində inkişaf əldə edilməkdədir.

Naxçıvan Muxtar Respublikası ölkə ərazisinin 6.3 faizini və əhalisinin 4.5 faizini təşkil edir. Anklav ərazi olmağına baxmayaraq, bölgədə bütün infrastruktur imkanlar yaradılıb. Belə ki, 360-ı respublika əhəmiyyətli olmaqla, 600 km yol örtüyü müasir yükdaşımada istifadə olunur.

Müxtəlif vaxt aralığı ilə bölgədə yaradılan sement zavod, Naxçıvan Avtomobil Zavodu və iri sənaye müəssisələri regionda işsizliyin səviyyəsini aşağı salmaqla yanaşı, əhalinin tələbatının yerli məhsullarla ödənməsinə imkan verir.

Bu gün muxtar respublikada iqtisadiyyat inkişafının ən yüksək səviyyəsində dayanıb. Yeni fəaliyyətə başlayan istehsal müəssisələri işsizliyin faizini minimuma endirməklə yanaşı, əhalinin məşğulluğunun etibarlı təminatçısına çevrilib. Hazırda muxtar respublikada fəaliyyət göstərən istehsal-sənaye müəssisələri yerli tələbatı tam ödəməklə, istehsal olunan məhsulları xarici bazarlara da çıxarır. Blokada şəraitində olan Naxçıvan üçün yeni imkanların açılması isə Vətən müharibəsində ölkəmizin tam qalibiyyəti ilə baş tutdu. Belə ki, 44 günlük Vətən müharibəsini qalibiyyətlə başa vurduqdan sonra 10 noyabr 2020-ci ildə imzalanan üçtərəfli Bəyanata görə Azərbaycan Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat təhlükəsizliyinə zəmanət verildi. Bu tarixi razılaşma muxtar respublikanın illərdir, davam edən blokada şəraitinə son qoymaqla yanaşı, həm də onun yeni inkişaf mərhələsinə başlamasına imkan verəcəkdir.

Naxçıvan dəhlizi regionun sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsində birbaşa rol oynayacaq. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan bu gün bir sıra emaledici məhsulların istehsalı ilə məşğuldur. Bu gün Naxçıvanda istehsal edilən bir sıra emaledici məhsullar, o cümlədən mineral sular, alkoqollu içkilər və digər emaledici ərzaq məhsullarının kifayət qədər böyük bazarı var. Amma uzun müddət quru və eyni zamanda dəmir yolu nəqliyyatından istifadə imkanlarının olmaması Naxçıvanda istehsal edilən məhsulların daha geniş bazarlara çıxarılmasında çətinliklər yaradırdı. Nəticə etibarilə, artıq dəhlizin istifadəyə verilməsi imkan verəcək ki, Naxçıvan sahibkarlarına istehsal etdikləri məhsulları daha geniş bazarlara çıxarmaq imkanları qazandıracaq. Bu da sahibkarlığın inkişafına böyük imkanlar yaradacaq. Bundan əlavə, dəhlizin əsas faydalarından biri də bütün dəhlizlərdə olduğu kimi, daşımaçılıqda əhəmiyyətli rol oynamasıdır. Odur ki, bu yol istər yük, istərsə də sərnişin daşınması sahəsində kifayət qədər önəmə malikdir.

*Naxçıvan dəhlizinin açılması təkcə muxtar respublikanın iqtisadi inkişafında deyil, həmçinin ölkənin iqtisadi inkişafında mühüm rol oynayacaq. Belə ki, bu dəhliz vasitəsilə ölkə sahibkarları əlavə nəqliyyat xərcləri çəkmədən istehsal etdikləri məhsulları Naxçıvan vasitəsilə Türkiyə və Avropa bazarlarına çıxarmaq imkanı əldə edəcəklər. Qeyri-neft ixracatımızda, ölkəyə daxil olan valyutanın həcmində artımlar müşahidə olunacaq, eyni zamanda Azərbaycan və eləcə də Naxçıvan üzərindən daşınan beynəlxalq yüklərin həcminin artmasına imkan verəcək. Bu da Azərbaycanın beynəlxalq yükdaşımalardan daha çox gəlir əldə etməsinə imkan yaradaraq ölkəmizin regionda strateji mövqeyinin daha da güclənməsinə gətirib çıxaracaq.*

**Hüseyn BAĞIRSOYLU**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı***
***"Naxçıvan" Universitetinin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent***

# Əməkdar jurnalist gənc oxucularla görüşüb






Azərbaycan Respublikasının Əməkdar jurnalisti Mətanət Məmmədovanın ötən il milli mətbuatımızın 145 illik yubileyi münasibətilə işıq üzü görən "Naxçıvanın publisistik xəritəsi" kitabının gənc oxucular arasında müzakirəsi təşkil olunub. Bu münasibətlə Gənclər Mərkəzində keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev açaraq müstəqillik illərində ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən uğurlu gənclər siyasətindən ətraflı söhbət açıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən il noyabrın 21-də keçirilən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Siyasi Şurasının iclasında gənclərin siyasi cəhətdən düzgün formalaşdırılması, partiya sıralarındakı nümunəvi gənclərin fəaliyyətinin təbliğ olunması və görüşlərin keçirilməsi, muxtar respublikada nəşr olunmuş kitablardan, xüsusilə də AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı", Ali Məclis Aparatının əməkdaşı, Əməkdar jurnalist Mətanət Məmmədovanın "Naxçıvanın publisistik xəritəsi" və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirlinin "Yaratmaq amalı" kitablarının gənclərin vətənpərvərlik tərbiyəsində əsas mənbə kimi istifadə olunması barədə tapşırıqlar verib. Həmin tapşırıqların icrasına uyğun olaraq "Naxçıvanın publisistik xəritəsi" kitabının gənclər arasında müzakirəsi keçirilir.

Kitabın müəllifi, Əməkdar jurnalist Mətanət Məmmədova Ali Məclis Sədrinin Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında dərs vəsaiti kimi tədris olunmasını tövsiyə etdiyi "Naxçıvanın publisistik xəritəsi" kitabının ərsəyə gəlmə prosesindən geniş bəhs edib. Müəllif kitabda yer alan məqalələrdən yola çıxaraq blokadanın çətin, amansız, acı xatirələrinin yaşandığı gənclik illərini yada salıb, 30 il bundan öncə muxtar respublikada insanları mənəvi və maddi iztiraba sürükləyən elektrik enerjisinin yoxluğunu, saatlarla uzanan çörək növbələrini, evlərdə, həyətlərdə, küçələrdə, iaşə obyektlərində, məktəblərdə, mədəniyyət ocaqlarında hökm sürən antisanitariya hallarını, şəraitsizliyi ürək yanğısı ilə diqqətə çatdırıb. Bugünkü inkişafın, tərəqqinin ulu öndərin əsasını qoyduğu siyasi xəttə sadiqliyin sayəsində, ilələrin çəkilən zəhməti hesabına mümkün olduğunu vurğulayan Mətanət Məmmədova çıraq işığından enerji ixrac edən, çörək qıtlığından ərzaq təhlükəsizliyi təmin olunan, 0,2 faiz yaşıllıq ərazisindən 20 faizədək artaraq abadlıq diyarına çevrilən, blokadalı inkişaf tarixi yazan muxtar respublikanın yüksəliş yolunu yaşadığı hadisələrin timsalında faktlarla ətraflı şərh edib.

Qeyd edilib ki, 11 fəsildən ibarət kitabda yer alan araşdırma xarakterli yazılarda, məqalələrdə, oçerklərdə, müsahibələrdə blokadanın çətin dövründə Ali Məclisin Sədri seçilən cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublikada aparılan uğurlu siyasət nəticəsində qısa zamanda böyük dönüş yaradılması, hər addımda hökm sürən inkişaf, tərəqqi, diyarımızın qədimliyi ilə müasirliyinin vəhdəti, blokadanın dünəni ilə bu günü hər incə detalınadək bədii-publisistik dillə oxucuya çatdırılır.

Fəal gənc Rəhim Novruzov çıxışında "Naxçıvanın publisistik xəritəsi" kitabında yer alan məqalələrin gənclərin vətənpərvərlik ruhunda böyüməsində, tariximizin, mədəniyyətimizin öyrənilməsində böyük əhəmiyyət daşıdığını vurğulayıb, tədbir iştirakçıları adından görüşün keçirilməsinə, kitabın müzakirəsinə görə minnətdarlıq edib.

Səmimi şəraitdə, diskussiya şəklində davam edən tədbirin sonunda fəallıq göstərən bir qrup gənc oxucuya "Naxçıvanın publisistik xəritəsi" kitabı hədiyyə olunub.

**✍ Nail ƏSGƏROV**

# 47 gənc müəllim ümumtəhsil məktəblərində işlə təmin olunub



*28 dekabr 2020-ci il-11 yanvar 2021-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda müvafiq keçid balını toplayaraq işə qəbul edilən gənc müəllimlərlə görüş keçirilib.*

Tədbirdə Təhsil naziri Rəhman Məmmədov çıxış edərək muxtar respublikada bütün sahələr kimi, təhsilin də dövlət qayğısı ilə əhatə olunmasından danışıb. Qeyd edilib ki, təkcə ötən tədris ilində ümumtəhsil məktəblərindən 1500-dən çox müəllim müxtəlif ixtisasartırma kurslarına, təlimlərə cəlb olunmuşdur. Müəllimlərin diaqnostik qiymətləndirmələri aparılıb, şəhmatı tədris edən müəllimlərin ödənişsiz sertifikasiyası keçirilib, 505 müəllim sertifikatla təmin edilib. 2021-ci ilin yanvar ayından isə Naxçıvan Muxtar Respublikasında dövlət ümumi təhsil müəssisələrində işləyən müəllimlərin sertifikasiyasına başlanılıb.

Bildirilib ki, 2018-2019-cu tədris ilindən etibarən müəllimlərin işə qəbulunda müsabiqə mexanizmi tətbiq edilib, qaydalar şəffaflıq və obyektivlik baxımından əhəmiyyətli dərəcədə təkmilləşdirilib, ümumtəhsil məktəblərinin bilikli kadrlarla təminatı yaxşılaşıb. Bu günədək işə qəbulla bağlı keçirilən müsabiqələrdə yüksək nəticə göstərən kadrlardan 466-sı müəllim, 140-ı isə müxtəlif vəzifələrə olmaqla, ümumilikdə, 606 gənc kadr işlə təmin olunub. 437 gənc kadr kənd məktəblərini seçdikləri üçün bu məktəblərdə kadra olan kəskin ehtiyac ödənilib.

Diqqətə çatdırılıb ki, yanvarın 11-də yekunlaşan müəllimlərin işə qəbulu imtahanında 156 vakant yerə 261 müraciət olub, onlardan 136-sı keçid balını toplayıb. Keçid balını toplayanlardan 47-si ən yüksək nəticə göstərdiyindən müvafiq vakant vəzifəyə təyin olunub. İşə qəbul edilənlərdən 20-si stimullaşdırıcı tədbirlərin tətbiq olunduğu 14 məktəbi seçib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi, həmin ixtisaslarda təhsil alan tələbələrin ixtisaslı kadr kimi formalaşması ilə yanaşı, onların işlə təminatına da öz müsbət təsirini göstərib. Bunun nəticəsidir ki, işlə təmin olunan 47 müəllimdən 40-ı Naxçıvanda yerləşən ali təhsil müəssisələrində təhsil alıb.

Bildirilib ki, muxtar respublikanın şəhər və rayon məktəbləri ilə yanaşı, ucqar dağ kəndlərində də yaradılan müasir təhsil infrastrukturunun nəticəsidir ki, gənc müəllimlərdən 21-i şəhər və rayon mərkəzlərində yaşasalar da, kənd məktəblərində işləməyə üstünlük verib.

Sonra Təhsil naziri yeni işə təyin olunan gənc müəllimləri təbrik edib, onlara hərtərəfli biliyə, geniş dünyagörüşünə, xalqın milli-mənəvi dəyərlərinə yiyələnən, millətini və Vətənini sevən nəsil yetişdirilməsində səylə çalışmalarını tövsiyə edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi Baba Əliyev yeni işə qəbul edilən gənc kadrların ümumtəhsil məktəblərində müasir təhsil sistemində pedaqoji yeniliklərdən danışıb, gənc müəllimlər adından isə Firuzə Əhmədova çıxış edərək gənclərə göstərilən yüksək qayğıya görə minnətdarlıq edib.

Sonda gənc müəllimlərə metodik vəsaitlər və "Pedaqoji fikir tarixindən" kitabı hədiyyə olunub, müəllimlərin 3 günlük seminarına start verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## *“Sabahın tədqiqatçıları”*
## layihəsi öz missiyasını uğurla yerinə yetirir




*Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə reallaşdırdığı “Sabahın tədqiqatçıları” layihəsinin iştirakçıları yeni uğura imza atıb.*

